# Mündəricat

01 Moldova Respublikasının təhsil sisteminin təhlili və qiymətləndirilməsi

02 Ali təhsil sistemində əcnəbi tələbələr: Avstraliya, Kanada, Fransa, Almaniya, Niderland və Birləşmiş Krallıq üzrə tendensiyaların, çağırışların və siyasi yanaşmaların müqayisəli təhlili

03 Təhsildə məktəb seçimi və tənzimləmə siyasətinin şagird nailiyyətlərinə təsiri

# Moldova Respublikasının təhsil sisteminin təhlili və qiymətləndirilməsi

01

Avropa Təhsil Fondu tərəfindən hazırlanmış “Moldova Respublikasının təhsil sisteminin təhlili və qiymətləndirilməsi” hesabatında ölkənin təhsil sistemi bərabərlik, maliyyələşdirmə və idarəetmə istiqamətləri üzrə təhlil edilir. Sənəd Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən “Şərq tərəfdaşlığı ölkələrində təhsil islahatlarının və peşə bacarıqlarının dəstəklənməsi” proqramı çərçivəsində hazırlanmışdır.

Hesabatın məqsədi Moldova Respublikasının təhsil sistemində mövcud problemləri, siyasət boşluqlarını və əsas riskləri müəyyənləşdirərək prioritet islahat istiqamətlərini formalaşdırmaqdır. Sənəddə təhsil sistemindəki əsas bərabərsizliklərin şəhər-kənd amili ilə bağlı olduğu vurğulanır. Şəhər məktəblərində şagird sıxlığının yüksək olması, kənd məktəblərində isə şagird sayının azlığı resursların qeyri-bərabər bölgüsünə səbəb olur. Məktəbəqədər təhsil sahəsində də şəhər və kənd əraziləri arasında ciddi fərqlər müşahidə edilir. Tam orta təhsil müəssisələrinin əsasən şəhərlərdə yerləşməsi kənd şagirdlərinin təhsil imkanlarını məhdudlaşdırır. PISA 2022 nəticələri də şəhər və kənd məktəbləri arasında ciddi keyfiyyət fərqinin mövcud olduğunu göstərir.

Hesabatda müəllim çatışmazlığı, xüsusilə kənd məktəbləri üçün əsas problemlərdən biri kimi qeyd olunur. Müəllim heyətinin yaşlanması və STEM fənləri üzrə kadr çatışmazlığı vəziyyəti daha da ağırlaşdırır.
Sənəddə həssas sosial qruplara aid uşaqların vəziyyətinə də diqqət yetirilir. Kənd yerlərində yoxsulluq səviyyəsinin yüksək olması, məktəb mühitində təhlükəsizlik problemləri və zorakılıq halları təhsil sisteminin əsas sosial problemləri kimi qiymətləndirilir.
Hesabatda təhlil edilən məsələlərdən biri də təhsil sektorunun maliyyələşdirilməsi və idarəetmə mexanizmləridir. Qeyd olunur ki, Moldovada təhsilin maliyyələşdirilməsi əsasən adambaşına maliyyələşmə modeli əsasında həyata keçirilir. 2023-cü ildə Moldova ÜDM-in 6,3%-ni təhsilə yönəltmişdir. Bununla belə, təhsilin dövlət xərclərindəki payı son illərdə azalmışdır.

Hesabatda büdcə vəsaitlərinin istifadəsi ilə bağlı problemlər xüsusi vurğulanır. Planlaşdırma zəifliyi və satınalma proseslərindəki gecikmələr ayrılmış vəsaitlərin tam icrasına mane olur.
Sənəddə təhsil sektorunun xarici donor maliyyəsindən asılı olduğu da qeyd edilir. Əsas maliyyə tərəfdaşları Dünya Bankı və Avropa İttifaqıdır. Eyni zamanda, məktəblərin yerli maliyyə imkanlarının məhdud olması sektorun maliyyə dayanıqlığı üçün risk hesab olunur.

Hesabatda təhsilə ayrılan maliyyə resurslarının bölüşdürülməsi mexanizmləri dəqiqliklə təhlil edilir. Qeyd olunur ki, Moldovada məktəblərin maliyyələşdirilməsi 2014-cü ildən tətbiq edilən adambaşına maliyyələşmə modeli əsasında həyata keçirilir. 2025-ci ildə məktəblərin 96%-nin əsas büdcəsinin bu model üzrə formalaşdırılması nəzərdə tutulub.
Moldova modeli adambaşına maliyyələşməni “şagird sayı + diferensial ehtiyaclar” prinsipi üzərində qurur. Maliyyə bölgüsü aşağıdakı mexanizmlər vasitəsilə formalaşdırılır.
-təhsil pillələri üzrə çəki əmsalları;
-regional dəstək

İbtidai təhsil pilləsi üzrə əmsal 0.83, əsas təhsil üzrə 1.00, tam orta təhsil (lisey) səviyyəsi üzrə isə 1.22 olaraq müəyyən edilmişdir. Bununla daha yüksək resurs tələb edən təhsil mərhələlərinə əlavə maliyyə dəstəyi yönəldilir.
Hesabatda əlavə m aliyyələşdirmə komponentləri ayrıca vurğulanır. Ümumi təhsil büdcəsinin müəyyən hissəsi inklüziv təhsilin dəstəklənməsinə ayrılır və bu vəsait xüsusi təhsil ehtiyacları olan şagirdlər üçün əlavə xidmətlərin maliyyələşdirilməsinə yönəldilir. Rayon komponenti çərçivəsində ayrılan resurslar isə məktəb nəqliyyatı, yataqxanalar, əsaslı təmir işləri və maliyyə baxımından həssas məktəblərin dəstəklənməsi məqsədilə istifadə olunur.



Hesabatda qeyd edilir ki, 2024-cü ildən etibarən maliyyələşdirmə mexanizminə nəticəyönümlü və stimullaşdırıcı metodlar daxil edilmişdir. Yeni qaydalara əsasən, dövlət standartlarına cavab verməyən məktəblər üçün maliyyə mexanizmləri sərtləşdirilmiş, eyni zamanda kiçik və səmərəsiz məktəblərin optimallaşdırılması irəli sürülmüşdür. Bu dəyişikliklər maliyyə resurslarının daha effektiv və keyfiyyətyönümlü bölgüsünə keçidini hədəfləyir. Bununla yanaşı, sənəddə müəllimlər və həssas sosial qruplar üçün əlavə maliyyə dəstəyi tədbirləri nəzərdə tutulsa da, təşviq mexanizmlərinin real təsirini ölçən monitorinq və qiymətləndirmə sistemlərinin tam institusionallaşmadığı, nəticələrin effektivliyinin ölçülməsi ilə bağlı boşluqların qaldığı vurğulanır. Bütün bu tədbirlərə baxmayaraq, təhsil sektorunda maliyyə vəsaitlərinin idarə olunması ilə bağlı ciddi problemlər qalmaqdadır.

Hesabatda qeyd olunur ki, adambaşına maliyyələşmə modeli kiçik məktəblərin maliyyə dayanıqlığını zəiflədə bilər. Şagird sayı az olan məktəblərdə sabit xərclərin qarşılanması çətinləşir. Eyni zamanda, satınalma proseslərindəki gecikmələr və zəif planlaşdırma səbəbindən büdcə vəsaitlərinin tam istifadə olunmaması davamlı problem kimi qiymətləndirilir. Maliyyə vəsaitlərinin mərkəzdən yerli strukturlara ötürülməsi zamanı yaranan gecikmələr məktəblərin maliyyə vəsaitlərinin idarə olunmasına mənfi təsir göstərir. Hesabatda qeyd olunur ki, məktəblərdə maliyyə idarəçiliyi üzrə yeni vəzifələrin yaradılması ilə bağlı müəyyən irəliləyiş olsa da, direktorların maliyyə vəsaitləri ilə bağlı verdikləri qərarlarda səlahiyyətləri məhduddur. Bundan əlavə, xarici maliyyə dəstəyinin tam təmin olunmaması “Təhsil 2030” strategiyasının icrası üçün risk hesab olunur.

Hesabatda Moldova Respublikasında təhsil sisteminin idarəetmə strukturu və səlahiyyət bölgüsü ilə bağlı problemlər də təhlil edilir. Qeyd olunur ki, desentralizasiya siyasətinin tətbiqinə baxmayaraq, Təhsil və Elm Nazirliyi bir çox funksiyalar üzərində nəzarəti özündə saxlayır. Bu vəziyyət yerli idarəetmə qurumlarının fəaliyyət imkanlarını məhdudlaşdırır və idarəetmədə qeyri-müəyyənlik yaradır.
Rayon təhsil idarələrinin həm mərkəzi siyasəti icra etməsi, həm də yerli hakimiyyət orqanlarına hesabat verməsi idarəetmədə ikili asılılıq formalaşdırır. Hesabatda bunun maliyyələşmə gecikmələrinə və məktəblərin fəaliyyətinə siyasi müdaxilə riskinin artmasına səbəb olduğu vurğulanır.
Sənəddə 2026-cı il üçün nəzərdə tutulan məsələlərdən biri də RESTART islahatıdır. İslahat çərçivəsində bəzi idarəetmə səlahiyyətlərinin yenidən nazirliyə qaytarılması planlaşdırılır. Qeyd edilir ki, bu addım idarəetməni sadələşdirə bilsə də, onun, eyni zamanda yerli idarəetmə imkanlarının zəifləməsinə də yol açması mümkündür. Kadr idarəçiliyi sahəsində isə əsas problemlərdən biri müəllim çatışmazlığıdır. Xüsusilə STEM fənləri və kənd məktəbləri üzrə kadr çatışmazlığının davam etdiyi bildirilir. Müəllim çatışmazlığının əsas səbəbinin müəllimlərin yaşlanması, miqrasiya və gənc müəllimlərin peşəyə marağının zəif olması ilə əlaqələndirilir. Eyni zamanda, müəllimlərin əməkhaqqı və peşəkar inkişaf sisteminin nəticəyönümlü mexanizmlər əsasında qurulmadığı vurğulanır.

Hesabatda 2024-cü ildən tətbiq edilən “Model məktəblər” layihəsi kənd yerlərində təhsilin keyfiyyətinin artırılması baxımından mühüm təşəbbüs kimi qiymətləndirilir. Layihə çərçivəsində 35 məktəbin müasir infrastruktur və rəqəmsal avadanlıqlarla təmin olunması nəzərdə tutulur. Məqsəd kənd və şəhər məktəbləri arasındakı keyfiyyət fərqini azaltmaq və ixtisaslı müəllim resurslarından daha səmərəli istifadə etməkdir. Bununla yanaşı, hesabatda layihənin tətbiqi ilə bağlı bəzi risklər qeyd olunur. Xüsusilə kənd şagirdlərinin model məktəblərə daşınması və nəqliyyat imkanlarının məhdudluğu əsas problemlər kimi göstərilir.
Hesabatda məlumatların idarə edilməsi sahəsindəki çatışmazlıqlara diqqət yetirilir. Təhsili İdarəetmə İnformasiya Sisteminin (TİİS - EMIS) tam inteqrasiya olunmaması məlumat əsaslı qərarverməni çətinləşdirir və müəllim bölgüsü ilə məktəb şəbəkəsinin planlaşdırılmasına mənfi təsir göstərir. Rəqəmsallaşma sahəsində də ciddi problemlər mövcuddur. Kənd məktəblərinin əhəmiyyətli hissəsində internet və rəqəmsal cihaz çatışmazlığı müşahidə olunur. Eyni zamanda, müəllimlərin rəqəmsal bacarıqlarının mövcud tələblərdən geri qaldığı vurğulanır.



Hesabatda təhsil sisteminin inkişafı üçün altı əsas istiqamət üzrə islahat tövsiyələri irəli sürülür:
Məktəb şəbəkəsi ilə bağlı tövsiyələrdə kiçik məktəblərin optimallaşdırılması, model məktəblərə çıxış imkanlarının genişləndirilməsi və dezavantajlı ərazilərdə rəqəmsal cihaz təminatının artırılması əsas prioritetlər kimi göstərilir.

1. Müəllim siyasəti istiqamətində kənd yerlərində müəllim çatışmazlığının azaldılması, kompensasiyamexanizmlərinin təkmilləşdirilməsi və müəllimlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi tövsiyə olunur.

2. Həssas uşaqlarla bağlı tədbirlər sırasında inklüziv təhsilin genişləndirilməsi, məktəbdaxili zorakılığın qarşısının alınması və ukraynalı qaçqın uşaqların təhsil sisteminə inteqrasiyasının gücləndirilməsi xüsusi yer tutur.

3. Maliyyə vəsaitlərinin idarə edilməsi sahəsində büdcə xərclərinin səmərəliliyinin artırılması, kiçik məktəblərin maliyyə vəziyyətinin təhlili və yerli idarəetmə qurumlarının maliyyə potensialının gücləndirilməsi vacib hesab olunur.

İdarəetmə istiqamətində islahatların koordinasiyasının gücləndirilməsi və qərarların funksional qiymətləndirmə əsasında qəbul edilməsi tövsiyə edilir.

5. Məlumatların idarə edilməsi sahəsində isə Təhsili İdarəetmə İnformasiya Sisteminin (TİİS - EMIS) sisteminin təkmilləşdirilməsi, maliyyə və təhsil nəticələrinə dair məlumatların inteqrasiyası və məlumat əsaslı qərarvermə mexanizmlərinin genişləndirilməsi prioritet kimi göstərilir.

***Mənbə:*** *European Training Foundation (2026), Dorleans M. and al, Where Systems Meet People: Rapid Education Diagnosis (RED) Republic of Moldova - Turin, Italy*

# Ali təhsil sistemində əcnəbi tələbələr: Avstraliya, Kanada, Fransa, Almaniya, Niderland və Birləşmiş Krallıq üzrə tendensiyaların, çağırışların və siyasi yanaşmaların müqayisəli təhlili

02

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən "Ali təhsil sistemində əcnəbi tələbələr: Avstraliya, Kanada, Fransa, Almaniya, Niderland və Birləşmiş Krallıq üzrə tendensiyaların, çağırışların və siyasi yanaşmaların müqayisəli təhlili" adlı hesabat hazırlanmışdır. Hesabatda 2013-2023-cü illərdə Avstraliya, Kanada, Fransa, Almaniya, Niderland və Böyük Britaniyada əcnəbi tələbə axınındakı dəyişikliklər, ali təhsil siyasətindəki yeniliklər, tələbələrin qarşılaşdıqları sosial-iqtisadi, akademik problemlər, həmçinin tətbiq olunan dövlət və institusional siyasətlər müqayisəli şəkildə təhlil edilir.

Hesabatın nəticələrinə əsasən, 2023-cü ildə əcnəbi tələbələrin ən yüksək sayı Böyük Britaniyada qeydə alınıb: 748 min nəfər. Həmin dövrdə Avstraliyada 467 min, Almaniyada 423 min, Kanadada 389 min, Fransada 276 min, Niderlandda isə 169 min əcnəbi tələbə təhsil almışdır. Müqayisə göstərir ki, ən sürətli artım Kanada və Niderlandda müşahidə edilmişdir.
Hesabatda qeyd olunur ki, əcnəbi tələbələrin əsas hissəsi Asiya ölkələrindən gəlir. Xüsusilə Hindistandan gələn tələbələrin sayı bütün ölkələr üzrə artmışdır. Bunun əksinə olaraq, Çindən gələn tələbələrin payı əksər ölkələrdə azalmışdır. Regional baxımdan Fransada əcnəbi tələbələrin əsasən Afrika ölkələrindən, Niderlandda isə Avropa ölkələrindən gəldiyi müşahidə olunur.

Həmçinin qəbul prosesi zamanı tələbələrin əsas informasiya mənbələri universitetlərin rəsmi internet səhifələri və beynəlxalq reytinq platformaları olmuşdur. Bir çox ölkədə qəbul və viza prosedurlarında vasitəçi qurumlar tərəfindən göstərilən xidmətlərdən geniş istifadə edilmişdir. Araşdırma göstərir ki, viza müddətləri və təhsil haqları ölkələr üzrə əhəmiyyətli dərəcədə fərqlənir. Almaniyada dövlət universitetlərində təhsilin ödənişsiz olması bu ölkənin daha əlçatan olmasına şərait yaratmışdır. Ən yüksək təhsil haqları isə Böyük Britaniya, Kanada və Avstraliyada qeydə alınmışdır.
Hesabatdan görünür ki, əcnəbi tələbələr akademik mühitə ümumilikdə uyğunlaşsalar da, sosial inteqrasiya və yerli tələbələrlə ünsiyyət sahəsində müəyyən çətinliklərlə qarşılaşırlar. Xüsusilə Almaniya, Fransa və Niderlandda təcrid hissi və sosial əlaqələrin zəif olması daha çox müşahidə edilmişdir.
Hesabatda qeyd olunur ki, əcnəbi tələbələrin qarşılaşdığı əsas problemlərdən biri yaşayış və maliyyə məsələləridir. Kanada, Avstraliya və Niderlandda tələbələrin əhəmiyyətli hissəsi uyğun yaşayış yeri tapmaqda çətinlik çəkdiyini bildirmişdir. Yüksək yaşayış xərcləri səbəbindən bir çox tələbə təhsil müddətində işləməyə məcbur olmuşdur. Bu vəziyyət nəzərə alınaraq, müxtəlif ölkələrdə tələbə yataqxanalarının imkanları genişləndirilmiş və sosial dəstək proqramlarının əhatə dairəsi artırılmışdır.

Hesabatda əcnəbi tələbələrin qarşılaşdığı diskriminasiya halları da geniş şəkildə təhlil olunur. Nəticələr göstərir ki, əcnəbi tələbələr bir sıra ölkələrdə yerli tələbələrlə müqayisədə daha çox diskriminasiya və sosial təcrid halları ilə üzləşirlər. Niderlandda əcnəbi tələbələrin 41 faizi diskriminasiya ilə qarşılaşdığını bildirdiyi halda, bu göstərici yerli tələbələr arasında 21 faiz olmuşdur. Oxşar vəziyyət Fransada da müşahidə edilmişdir. Belə ki, əcnəbi tələbələr üzrə göstərici 31 faiz, yerli tələbələr üzrə isə 14 faiz təşkil etmişdir. Almaniyada isə xüsusilə Sahara ətrafı Afrika ölkələrindən, həmçinin Şimali Afrika və Yaxın Şərqdən gələn tələbələrin daha çox diskriminasiya ilə üzləşdiyi qeyd olunur. Sorğulara əsasən, Sahara ətrafı Afrika ölkələrindən olan tələbələrin 29 faizi, Şimali Afrika və Yaxın Şərq mənşəli tələbələrin isə 26 faizi universitet daxilində diskriminasiya yaşadığını bildirmişdir. Universitetdənkənar sosial mühitdə isə bu göstəricinin 68 faizə qədər yüksəldiyi vurğulanır.

Böyük Britaniyanın Russell Group universitetlərində aparılmış sorğunun nəticələri də oxşar tendensiyanı göstərir. Sorğuda iştirak edən əcnəbi tələbələrin 32 faizi irqçilik, 30 faizi isə ksenofobiya halları ilə qarşılaşdığını qeyd etmişdir.
Hesabatda həmçinin, beynəlxalq tələbələrin məzun olduqdan sonrakı vəziyyəti təhlil olunur. Burada əsas diqqət tələbələrin təhsildən sonra ölkədə qalma göstəricilərinə, əmək bazarına inteqrasiyasına və daimi yaşayış statusu əldə etmə meyillərinə yönəldilmişdir. Müqayisəli nəticələr bu sahədə ölkələr arasında nəzərəçarpacaq fərqlərin olduğunu göstərir.



Təhsil üçün ilk icazənin verilməsindən beş il sonra qüvvədə olan yaşayış statusuna malik əcnəbi şəxslərin payı Kanada və Almaniyada 52 faiz təşkil etmişdir. Bu göstərici Avstraliyada 34 faiz, Fransada isə 33 faiz olmuşdur. Niderlandda ölkədə qalma səviyyəsi 19 faizə qədər azalmış, Böyük Britaniyada isə cəmi 7 faiz qeydə alınmışdır.

Uzunmüddətli perspektivdə də oxşar tendensiya müşahidə olunur. Onillik dövr üzrə ölkədə qalma göstəricisi Almaniyada 45 faiz, Kanadada 44 faiz, Avstraliyada isə 29 faiz olmuşdur. Hesabatda Böyük Britaniyada əcnəbi tələbələrin uzunmüddətli məskunlaşma səviyyəsinin xüsusilə aşağı olduğu vurğulanır. Belə ki, 2015-ci ildə ölkəyə gəlmiş əcnəbi tələbələr arasında 9–10 il sonra daimi yaşayış hüququ əldə edənlərin payı cəmi 4 faiz təşkil etmişdir.

Hesabatda qeyd olunur ki, əcnəbi vətəndaşların məzun olduqdan sonra əmək bazarına keçid mərhələsində ilkin məşğulluq göstəriciləri yerli vətəndaşlarla müqayisədə daha aşağıdır. Buna baxmayaraq, zaman keçdikcə bu fərqin tədricən azaldığı müşahidə olunur. Araşdırma göstərir ki, əcnəbi məzunların məşğulluq imkanlarına təsir edən əsas amillərdən biri onların miqrasiya və yaşayış statusudur.

Avstraliyada aparılmış sorğuların nəticələrinə əsasən, bakalavriat məzunlarının 18 faizi, magistratura məzunlarının isə 20 faizi ixtisas tələb etməyən işlərdə çalışmasını daimi yaşayış icazəsinin olmaması ilə əlaqələndirmişdir. Bu isə göstərir ki, hüquqi status və əmək bazarına çıxış imkanları əcnəbi məzunların peşə uyğunluğuna birbaşa təsir göstərir.

Kanada nümunəsi isə daha fərqli mənzərə ortaya qoyur. Hesabatda vurğulanır ki, məzun olduqdan sonra iş icazəsi alan əcnəbi tələbələrin daimi yaşayış statusuna keçid ehtimalı daha yüksək olmuşdur. Belə ki, 2006–2010-cu illərdə bu icazəni alanların 74 faizi on il ərzində daimi yaşayış statusu əldə etmişdir. 2016–2020-ci illərə aid göstəricilər isə bu keçid prosesinin daha sürətli baş verdiyini göstərir.

Hesabatda əcnəbi tələbə siyasətinin daha effektiv və dayanıqlı şəkildə formalaşdırılması məqsədilə dörd əsas istiqamət müəyyən edilmişdir:

1.Əcnəbi tələbə qəbulunun daha sabit, şəffaf və proqnozlaşdırıla bilən mexanizmlər əsasında tənzimlənməsi başlıca istiqamətlərdən biri kimi göstərilmişdir. Hesabatda vurğulanır ki, potensial tələbələrə etibarlı və real məlumatın təqdim edilməsi, milli informasiya platformalarında təhsil xərcləri, yaşayış şərtləri və maliyyə imkanlarının açıq şəkildə göstərilməsi xüsusi əhəmiyyət daşıyır. Bununla yanaşı, qəbul və miqrasiya proseslərində fəaliyyət göstərən vasitəçi qurumların fəaliyyətinə nəzarətin gücləndirilməsi də başlıca istiqamətlərdən biri kimi qiymətləndirilir.

2. Əcnəbi tələbələrin akademik uyğunlaşmasının və sosial inteqrasiyasının gücləndirilməsi yolu ilə təhsil proqramlarını yarımçıq tərk etmə risklərinin azaldılması prioritet sahələrdən biri kimi müəyyən edilmişdir. Bu məqsədlə qəbuldan əvvəl hazırlıq proqramlarının genişləndirilməsi, mentorluq və tələbə dəstək mexanizmlərinin inkişaf etdirilməsi tövsiyə olunur. Eyni zamanda, mənzil təminatı, maliyyə yardımı və psixoloji dəstək xidmətlərinin əlçatanlığının artırılması əcnəbi tələbələrin ümumi rifahının və təhsil prosesinə uyğunlaşmasının əsas komponentləri kimi təqdim edilir.

3. Əcnəbi məzunların əmək bazarına keçidinin dəstəklənməsi əsas istiqamətlərdəndir. Bu çərçivədə universitetlərin karyera dəstək xidmətlərinin genişləndirilməsi, tələbələrin peşəkar şəbəkələrə çıxış imkanlarının artırılması, diplomların tanınması qaydalarının sadələşdirilməsi və işəgötürənlərin əcnəbi məzunlarla bağlı məlumatlandırılmasının gücləndirilməsi vacib hesab olunur. Sənəddə qeyd edilir ki, bu tədbirlər əcnəbi məzunların ixtisaslarına uyğun məşğulluq imkanlarını genişləndirə və onların iqtisadi inteqrasiyasını sürətləndirə bilər.

4. Əcnəbi tələbələrlə bağlı məlumat bazasının və monitorinq mexanizmlərinin təkmilləşdirilməsi vacib istiqamətlərdən biri kimi qeyd edilmişdir. Buraya əcnəbi tələbələrə dair məlumatların vahid standartlar əsasında toplanması, məzunların sonrakı təhsil və əmək fəaliyyəti üzrə trayektoriyalarının izlənməsi, eləcə də peşəkar inteqrasiya göstəricilərinin mütəmadi monitorinqi daxildir.

***Mənbə:*** *OECD (2026), International Students in Higher Education: A comparative analysis of trends, challenges and policy responses in Australia, Canada, France, Germany, the Netherlands and the United Kingdom, Higher Education, OECD Publishing, Paris, https://doi.org/10.1787/005ff28d-en.*

# Təhsildə məktəb seçimi və tənzimləmə siyasətinin şagird nailiyyətlərinə təsiri

03

Çikaqo Universiteti (University of Chicago) nəzdində fəaliyyət göstərən Bekker Fridman İqtisadiyyat İnstitutu (Becker Friedman Institute for Economics – BFI) tərəfindən "Təhsildə məktəb seçimi və tənzimləmə siyasətlərinin şagird nailiyyətlərinə təsiri" mövzusunda tədqiqat təqdim edilmişdir. Abdulkadiroğlu, Pathak və Ualters tərəfindən aparılmış tədqiqatda şagirdlərin məktəblər üzrə yenidən bölgüsü (reallocation) və məktəb şəbəkəsinin yenidən təşkili (resource augmentation) siyasətlərinin şagird nailiyyətlərinə təsiri empirik əsaslarla təhlil edilmişdir. Tədqiqat Nyu-York şəhərinin tam orta məktəblərinə dair inzibati məlumatlar bazasına əsaslanır.

Araşdırma 2003-2013-cü illəri əhatə etmiş, tədqiqata 294 tam orta məktəb və 61879 şagird cəlb olunmuşdur. Tədqiqatda şagird nailiyyətlərində müşahidə olunan fərqlərin məktəb seçimi imkanları, şagirdlərin məktəblər üzrə bölgüsü və yüksək keyfiyyətli təhsil müəssisələrinin qəbul potensialı ilə əlaqəsi araşdırılmış, sözügedən amillərin təlim nəticələrinə təsiri empirik metodlar əsasında qiymətləndirilmişdir. Müəlliflər müxtəlif empirik modellərdən və Nyu-York şəhərində tətbiq olunan məktəblərə qəbulun mərkəzləşdirilmiş mexanizminə dair məlumatlardan istifadə etməklə təhsil siyasətlərinin şagird nailiyyətlərinə təsirini qiymətləndirmişlər.

Məqalədə qeyd olunur ki, Boston, Çikaqo, Denver və Nyu-York kimi şəhərlərdə şagirdlərin məktəblərə qəbulu mərkəzləşdirilmiş elektron sistem vasitəsilə həyata keçirilir. Müəlliflər tərəfindən vurğulanır ki, bəzi nüfuzlu məktəblərdə imtahan əsaslı qəbul meyarları yumşaldılmış, eyni zamanda sosial cəhətdən həssas qruplara mənsub şagirdlər üçün əlavə üstünlüklər nəzərdə tutulmuşdur. Eyni zamanda qeyd olunur ki, Nyu-Yorkda 2023-2024-cü tədris ilində 40-dan çox məktəbdə həssas qruplar üçün xüsusi qəbul siyasəti tətbiq edilmişdir. Tədqiqatda vurğulanır ki, valideynlərin məktəb seçimlərinə təsir edən amillər yalnız akademik göstəricilərlə məhdudlaşmır, məktəbin coğrafi yerləşməsi, sosial mühiti və əlçatanlığı da bu prosesdə mühüm rol oynayır.

Tədqiqatda resursların artırılması siyasəti də təhlil olunur. Müəlliflər qeyd edirlər ki, ABŞ-da, xüsusilə 2000-ci illərdən etibarən, akademik göstəriciləri aşağı olan məktəblərin bağlanması və onların əvəzində daha kiçik məktəblərin yaradılması geniş tətbiq edilmişdir. Son illərdə şagird sayının azalması bu prosesi daha da sürətləndirmişdir. Belə ki, ABŞ-nin ən böyük 100 məktəbində 2010-cu ildən etibarən təxminən 800 min şagird azalması qeydə alınmışdır. Boston, Çikaqo və Filadelfiya kimi şəhərlərdə məktəb şəbəkəsinin optimallaşdırılması məqsədilə çoxsaylı məktəblər bağlanmışdır. Məsələn, Çikaqoda 2013-cü ildə 50 məktəbin fəaliyyətinə xitam verilmiş, son on il ərzində isə şəhərdə şagird sayında təxminən 80 min nəfərlik azalma müşahidə olunmuşdur.

Məqalədə dövlət tərəfindən maliyyələşdirilən, lakin ənənəvi dövlət məktəblərinə nisbətən daha çox maliyyə müstəqilliyinə malik olan məktəblərin genişlənməsi resursların artırılması siyasətinin mühüm istiqaməti kimi təqdim edilir. Qeyd olunur ki, 2010-2021-ci illər ərzində ABŞ-də bu məktəblərdə təhsil alan şagirdlərin payı 4 faizdən 7 faizə yüksəlmişdir.

Müəlliflər məktəb keyfiyyətinin qiymətləndirilməsi üçün konseptual model təqdim edirlər. Modelə əsasən, şagird nailiyyətləri üç əsas amilin qarşılıqlı təsiri nəticəsində formalaşır:
- şagirdin fərdi xüsusiyyətləri və bacarıqları;
- məktəbin ümumi keyfiyyəti;
- şagird ilə məktəb arasındakı uyğunluq səviyyəsi.

Məktəbin şagird nailiyyətlərinə təsiri adətən iki istiqamətdə - şaquli və üfüqi aspektlərdə nəzərdən keçirilir. Şaquli təsirlər məktəbin tədris prosesi vasitəsilə şagirdlərin akademik inkişafına zaman ərzində göstərdiyi təsirləri ifadə edir. Üfüqi təsirlər isə eyni dövrdə müxtəlif məktəblər arasında mövcud olan fərqlərin şagird nəticələrinə təsirini əks etdirir.



Tədqiqatın nəticələrinə əsasən, məktəblər arasındakı ümumi keyfiyyət fərqləri şagird–məktəb uyğunluğu ilə bağlı fərqlərdən təxminən on dəfə yüksəkdir. Bu nəticə təhsil nailiyyətlərinə təsir edən əsas amilin məktəbin ümumi keyfiyyəti olduğunu göstərir. Riyaziyyat fənni üzrə nailiyyətlərdə müşahidə olunan fərqlərin əhəmiyyətli hissəsi məktəblərin struktur xüsusiyyətləri ilə əlaqələndirilir. Başqa sözlə, yüksək keyfiyyətli məktəblər şagirdlərin fərdi və sosial-demoqrafik xüsusiyyətlərindən asılı olmayaraq onların akademik nailiyyətlərinin yüksəlməsinə müsbət təsir göstərir. Statistik hesablamalara əsasən, məktəblərin təsir göstəriciləri arasındakı fərq orta hesabla 0,26–0,27 standart sapma səviyyəsində olmuşdur. Bu göstərici məktəblərin keyfiyyəti arasında əhəmiyyətli fərqlərin mövcud olduğunu təsdiqləyir. Nəticələr göstərir ki, bəzi məktəblər şagird nailiyyətlərinə digər məktəblərlə müqayisədə daha güclü təsir göstərmişdir. Şagird–məktəb uyğunluğu ilə bağlı fərqlərin isə nisbətən aşağı səviyyədə olduğu müəyyən edilmişdir. Yüksək ilkin akademik göstəricilərə malik şagirdlərin müəyyən məktəblərdə daha yüksək nəticələr əldə etməsi ilə bağlı fərqlər orta hesabla 0,13 standart sapma səviyyəsində qiymətləndirilmişdir. İrqi və etnik mənsubiyyət üzrə fərqlər təxminən 0,14 standart sapma təşkil etmiş, gender amili üzrə fərqlər isə daha aşağı səviyyədə müşahidə olunmuşdur.

Araşdırmanın nəticələri göstərir ki, akademik göstəricilərdə müşahidə olunan əsas fərqlər məktəblərin ümumi keyfiyyəti ilə əlaqədardır, şagird-məktəb uyğunluğunun təsiri isə nisbətən məhdud xarakter daşıyır. Müəlliflərin qənaətinə görə, bu nəticə təhsil siyasətində prioritet istiqamətlərdən birinin yüksək keyfiyyətli məktəblərin sayının artırılması olduğunu göstərir.
Tədqiqatda müxtəlif simulyasiya modellərinin şagird nailiyyətlərinə təsiri də təhlil olunur. Birinci modeldə valideynlərin məktəb seçimini akademik göstəricilər əsasında formalaşdırdığı, ikinci modeldə isə məktəblərin şagird qəbulunu onların potensial akademik nəticələrinə uyğun həyata keçirdiyi nəzərdə tutulur. Digər modellərdə valideyn və məktəb qərarlarının qarşılıqlı uyğunlaşdırılmasının, eləcə də məktəblərə qəbulun mərkəzləşdirilmiş elektron sisteminin təsiri araşdırılır. Simulyasiya nəticələri göstərir ki, bu sistem akademik nəticələrə məhdud təsir göstərir. Valideyn seçimləri və məktəbə qəbul mexanizmləri effektivlik meyarlarına uyğunlaşdırıldıqda müəyyən irəliləyişlər müşahidə olunsa da, ümumi təsir zəif olaraq qalır. Hətta ən optimal bölgü modeli belə riyaziyyat üzrə nəticələrdə əhəmiyyətli dəyişiklik yaratmır.

Müəlliflərin qənaətinə görə, uzunmüddətli göstəricilər üzrə müəyyən müsbət nəticələr əldə edilsə də, yüksək nəticə göstərən məktəblərdə yerlərin məhdudluğu tətbiq olunan siyasətlərin effektivliyini azaldır. Bu səbəbdən yüksək nəticə göstərən məktəblərin sayının artırılması təhsil siyasətinin daha prioritet istiqamətlərindən biri kimi qiymətləndirilir.
Məqalənin mühüm nəticələrindən biri aşağı nəticə göstərən məktəblərin bağlanması siyasətinin daha effektiv yanaşma kimi qiymətləndirilməsidir. Simulyasiya nəticələri göstərir ki, aşağı nəticə göstərən məktəblərin bağlanaraq şagirdlərin daha yüksək nəticə göstərən məktəblərə yönləndirilməsi, şagirdlərin mövcud məktəblər arasında yenidən yerləşdirilməsinə əsaslanan siyasətlərlə müqayisədə daha müsbət nəticələr verir.
Müəlliflərin qiymətləndirmələrinə əsasən, riyaziyyat fənni üzrə nəticələrdə müəyyən artımın əldə edilməsi üçün məktəblərin təxminən 7 faizinin bağlanması kifayət edir. Daha yüksək nəticələrin əldə olunması üçün isə məktəblərin təxminən 13 faizinin fəaliyyətinin dayandırılması tələb olunur. Məqalədə qeyd olunur ki, araşdırma dövründən sonrakı on il ərzində Nyu-York məktəblərinin təxminən 14 faizinin fəaliyyəti dayandırılmışdır. Bu nəticə təklif olunan siyasətin praktik tətbiq imkanlarının real olduğunu göstərir.
Tədqiqatda 2008–2017-ci illərdə Nyu-York şəhərində bağlanmış 42 orta məktəb təhlil edilir. Araşdırma göstərir ki, bağlanmış məktəblərin əksəriyyəti aşağı nəticələrə malik olmuşdur. Məktəblərin effektivliyi ilə məzun göstəriciləri arasında güclü əlaqə müəyyən edilmişdir. Müəlliflər vurğulayırlar ki, aşağı nəticə göstərən məktəblərin müəyyənləşdirilməsində məzun göstəricilərindən istifadə kifayət qədər etibarlı yanaşma ola bilər.



Tədqiqatın mühüm nəticələrindən biri də valideyn seçimləri ilə məktəbin real nəticələri arasında zəif əlaqənin mövcud olmasıdır. Araşdırma göstərir ki, bir çox valideynlər aşağı nəticə göstərən məktəbləri seçməyə davam edirlər. Bu vəziyyət məktəb seçimi prosesində informasiya çatışmazlığının mövcudluğunu əks etdirir.
Ümumilikdə tədqiqat göstərir ki, şagirdlərin məktəblər arasında yenidən bölüşdürülməsi müəyyən müsbət təsir yaratsa da, təlim nəticələrinin yaxşılaşdırılmasında əsas rol məktəb keyfiyyətinin artırılmasına və aşağı nəticə göstərən məktəblərin daha effektiv məktəblərlə əvəz olunmasına aiddir. Tədqiqat məktəb seçimi, resursların bölüşdürülməsi və məktəblərin bağlanması siyasəti ilə bağlı mühüm elmi nəticələr ortaya qoyur.

Tədqiqatın nəticələrinə əsasən, təhsil siyasətinin təkmilləşdirilməsi və məktəb sisteminin effektivliyinin artırılması məqsədilə aşağıdakı tövsiyələr irəli sürülür:

- Şagirdlərin məktəblər arasında sadəcə yenidən yerləşdirilməsi yüksək akademik nəticələr yaratmır. Buna görə də, əsas diqqət aşağı nəticə göstərən məktəblərin yenidən təşkili və resursların daha səmərəli bölüşdürülməsinə yönəldilməlidir.

- Məktəblərin fəaliyyətinin qiymətləndirilməsi üçün davamlı monitorinq mexanizmlərinin yaradılması, məzunların göstəriciləri və akademik nailiyyətlər əsasında zəif fəaliyyət göstərən məktəblərin müəyyənləşdirilməsi vacib hesab olunur. Məzunların göstəriciləri aşağı nəticə göstərən məktəblərin müəyyən edilməsi üçün effektiv vasitə kimi çıxış edə bilər.

  Aşağı nəticə göstərən məktəblərin mərhələli şəkildə yenidən təşkili və ya daha effektiv məktəblərlə əvəz olunmasına yönəlmiş siyasətin həyata keçirilməsi tövsiyə olunur. Bu prosesdə şagirdlərin keyfiyyətli təhsilə çıxış imkanlarının təmin edilməsi əsas prioritet kimi qiymətləndirilir.

- Valideynlərin məktəb seçimi prosesində daha şəffaf və əlçatan məlumatlarla təmin edilməsi mühüm əhəmiyyət daşıyır. Məktəblərin akademik nəticələri barədə açıq məlumatların təqdim olunması qərarvermə prosesinin keyfiyyətinin yüksəldilməsinə töhfə verə bilər.

- Eyni zamanda, yüksək nəticə göstərən məktəblərdə yerlərin məhdudluğu nəzərə alınaraq, effektiv məktəblərin potensialının genişləndirilməsi və yeni keyfiyyətli məktəblərin yaradılması təhsil siyasətinin prioritet istiqamətlərindən biri kimi nəzərdən keçirilməlidir.

***Mənbə:*** *Who Gets What in Education: Can School Matching Improve Student Achievement? Atila Abdulkadiroglu, Parag A. Pathak, and Christopher R. Walters. 2026*

Beynəlxalq Təhsil İcmalı
May 2026